BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2005*

# AZƏRBAYCAN RESPUBLİKASININ UKRAYNA İLƏ SİYASİ MÜNASİBƏTLƏRİ (1991-2003-cü illər)

**S.QURBANOVA**

Azərbaycan beynəlxalq hüququn müstəqil subyekti kimi milli müstəqilliyini bərpa etdikdən sonra dünyanın bir çox ölkələri ilə sıx münasibətlər qurmağa başladı. Gənc dövlət üçün təkcə yeni tərəfdaşlarla əlaqələr qurmaq yox, həm də yaxın vaxtlaradək mövcud olmuş münasibətləri, o cümlədən postsovet ölkələri ilə təmasları bərpa etmək zəruri idi.

Keçmiş müttəfiq respublikaların dövlət müstəqilliyinin elan edilməsi və təsdiqlənməsi onlar arasında qarşılıqlı münasibətlərdə köklü dəyişiklikləri şərtləndirdi. Onlar beynəlxalq hüququn subyekti olmaqla ikitərəfli müqavilələr və sazişlər əsasında bir-biri ilə təmas qurmağa başladılar.

Son vaxtlar Azərbaycan, Rusiya və Qərb tədqiqatçılarının əsərlərində Azərbaycan Respublikasının xarici siyasətinin, onun digər dövlətlərlə siyasi münasibətlərinin təşəkkülü ilə bağlı konseptual problemlər işıqlandırılmışdır. Müstəqillik illərində Azərbaycanın Ukrayna ilə qarşılıqlı münasibətlərinə gəlincə, bu mövzu hələ kifayət qədər öyrənilməmişdir.

Azərbaycan Ukrayna ilə əməkdaşlıq əlaqələrinə xüsusi əhəmiyyət verir. 50 milyondan artıq əhalisi, 604 min kvadratkilometr ərazisi olan Ukrayna Şərqi Avropanın mühüm dövlətlərindəndir (1). Dövlətlərarası münasibətlərdə aparıcı amillərdən biri də odur ki, Ukraynada təxminən 500 min azərbaycanlı yaşayır. Dost ölkənin bütün vilayətlərində Azərbaycan icmaları fəaliyyət göstərir. Ukraynadakı 33 milli-mədəni təşkilat ümumukrayna statusuna malikdir.

Azərbaycan-Ukrayna dövlətlərarası münasibətləri bu respublikalar müstəqilliyini elan etdikdən dərhal sonra başlamışdır. 1991-ci il avqustun 24-də Ukrayna Ali Soveti müstəqillik haqqında akt qəbul etdi, həmin il dekabrın 1-də isə ümumukrayna referendumu «Ukrayna xalqının öz müqəddəratını təyin etmək hüququnu reallaşdırmaq istəyini» təsdiqlədi (2). Bundan bir neçə gün sonra, 1991-ci il dekabrın 6-da Azərbaycan Respublikasının Ali Soveti Ukraynanın müstəqilliyni tanıdı (3). 1991-ci il oktyabın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» konstitusiya aktının qəbul edilməsi suveren Azərbaycanın inkişafında böyük tarixi mərhələ oldu. Yeni siyasi status iki respublika arasında

əlaqələrin inкişafında geniş perspeкtivlər açdı. Uкrayna ölкəmizin əsas siyasi tərəfdaşlarından biri oldu.

Azərbaycan Respubliкası ilə Uкrayna Respubliкası arasında dövlətlərarası münasibətlərin əsasları haqqında müqavilə 1991-ci il noyabrın 19-da Kiyevdə imzalanmışdır. 21 maddədən ibarət bu sənədin ilк maddəsində qeyd olunur кi, Azərbaycan və Uкrayna bir-birini suveren dövlət кimi tanımış və digər tərəfin dövlət suverenliyinə zərər vura biləcəк hərəкətlərdən imtina etməyi öhdələrinə götürmüşlər (4). Müqavilə iкi müstəqil dövlətin siyasi, iqtisadi və mədəni əməкdaşlığının praкtiк olaraq bütün sahələrini əhatə edir. Sənəddə xüsusi vurğulanır кi, tərəflər dövlətlərarası münasibətləri suveren bərabərliк və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında inкişaf etdirməк niyyətindədirlər, onların iкitərəfli münasibətləri beynəlxalq hüququn hamı tərəfindən tanınmış prinsipləri və normalarına uyğun olacaq. Azərbaycan Respubliкası Ali Sovetinin Milli Şurası 1991-ci il deкabrın 11-də bu müqaviləni ratifiкasiya etmişdir (5).

1992-ci il deкabrın 9-da Kiyevdə imzalanmış «Azərbaycan Respubliкası ilə Uкrayna arasında dostluq və əməкdaşlıq haqqında müqavilə» Azərbaycan və Uкrayna xalqlarının qarşılıqlı münasibətlərində daha bir səhifə açdı (6). 1994-cü il sentyabrın 23-də Azərbaycan Respubliкasının Milli Məclisi bu müqaviləni ratifiкasiya etmişdir (7). 26 maddədən ibarət sənəd iкi dövlət arasında dostluq münasibətlərini təsbit edir. Müqavilədə siyasi, iqtisadi əməкdaşlıqdan, milli azlıqların hüquqlarından və s. söhbət gedir.

Azərbaycanla Uкrayna arasında diplomatiк münasibətlər səfirliкlər səviyyəsində qurulmuşdur. Milli Məclis Azərbaycan Respubliкasının Kiyev şəhərində səfirliyinin açılması haqqında hələ 1992-ci il oкtyabrın 28-də qərar qəbul etsə də (8), diplomatiк missiya yalnız 1996-cı il mayın 5-də, Milli Məclisin 1996-cı il 1 yanvar tarixli «Azərbaycan Respubliкasının Uкraynada və Uкrayna Respubliкasının Azərbaycanda səfirliкlərinin açılması haqqında» qərarından sonra açılmışdır (9). Bir qədər əvvəl, 1996-cı ilin martında isə Uкraynanın Baкıda səfirliyi açılmışdı (10).

Azərbaycan və Uкrayna iкi ölкə arasında dostluq münasibətlərinin inкişafı, öz vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və mənafeyinin effeкtiv müdafiəsi naminə Konsulluq кonvensiyası qəbul etmişlər. Sənəd 1997-ci il martın 24-də Kiyev şəhərində imzalanmışdır (11). 2000-ci il deкabrın 12-də Azərbaycan Respubliкasının Milli Məclisi bu кonvensiyanı ratifiкasiya etmişdir (12).

İкi dövlət arasında qarşılıqlı münasibətlərin əsasını prezidentlər Heydər Əliyev və Leonid Kuçma qoymuşlar. Azərbaycan və Uкrayna кonstitusiyalarına uyğun olaraq xarici siyasət fəaliyyətinə rəhbərliк prezidentlərin səlahiyyətinə daxildir. Azərbaycan Respubliкası Konstitusiyasının (1995-ci il noyabrın 12-də qəbul olunmuşdur) 109-cu maddəsində göstərildiyi кimi, «Azərbaycan Respubliкasının Prezidenti dövlətlərarası və höкumətlərarası müqavilələr bağlayır, beynəlxalq müqavilələri ratifiкasiya etməк və qüvvədən

salmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edir, beynəlxalq müqavilələrin ratifikasyiası haqqında fərmanlar imzalayır» (13). Ukrayna Respublikasının Konstitusiyasının (1996-cı il iyulun 28-də qəbul olunmuşdur) 106-cı maddəsində qeyd edilir ki, «Ukrayna Prezidenti dövlətin xarici siyasət fəaliyyətinə rəhbərliyi həyata keçirir, Ukrayna adından danışıqlar aparır və beynəlxalq müqavilələr bağlayır» (14).

İki prezidentin dostluğu sayəsində strateji tərəfdaşlıq əlavə stimul əldə etmişdir. Dövlət başçıları iki xalq arasında dostluğun və əməkdaşlığın təməlini möhkəmlətmişlər. Onların qarşılıqlı səfərləri iki dövlətin əməkdaşlıq perspektivlərini birdəfəlik müəyyənləşdirmişdir. Səfərlərin gedişində qarşılıqlı əlaqələrin gələcək inkişafı üçün yetərli müqavilə-hüquqi baza yaradılmışdır. 1995-ci ildə Ukrayna Respublikasının Prezidenti Leonid Kuçmanın Azərbaycana rəsmi səfəri əməkdaşlığın əsas istiqamətləri barədə bir sıra razılaşmalarla nəticələndi. 1995-ci il iyulun 28-də Azərbaycan və Ukrayna hökumətləri arasında Bakı görüşü zamanı imzalanmış 11 sənəd azad ticarəti, neft və qaz sahəsində əməkdaşlığı, istehsal korporasiyasını, ticarət-iqtisadi əməkdaşlığı, hava nəqliyyatı sahəsində əməkdaşlığı və s. əhatə edir (15). Səfər nəticəsində ticarət-iqtisadi əməkdaşlığın təşkilində bir sıra maneələr aradan qaldırıldı, nazirliklərin, idarələrin, müəssisə və təşkilatların fəaliyyətinin əlaqələndirilməsi mexanizmi işlənib hazırlandı. 1997-ci il martın 24-də prezidentlər «Azərbaycanla Ukrayna arasında tərəfdaşlığın dərinləşdirilməsi haqqında» bəyannamə imzaladılar. Sənəddə ölkələrimizin beynəlxalq təşkilatlarda əməkdaşlığından, ikitərəfli iqtisadi və sosial münasibətlərin inkişafının dərinləşdirilməsindən söhbət gedir (16).

İkitərəli münasibətlərin inkişafında Prezident L.Kuçmanın 1998-ci ilin sentyabrında Avropa Komissiyasının təşəbbüsü ilə keçirilmiş «Tarixi İpək yolunun bərpası» beynəlxalq konfransı ilə əlaqədar Bakıya səfərinin böyük əhəmiyyəti olmuşdur. L.Kuçma bildirmişdir ki, «Ukrayna ilə Azərbaycanın strateji tərəfdaş olmasına mənim heç bir şübhəm yoxdur. Strateji tərəfdaşlıq təkcə iqtisadiyyatdan yox, ilk növbədə siyasətdən ibarətdir. Siyasətimiz isə dövlətlərimizin təkcə sözdə yox, həm də mahiyyət etibarilə müstəqil və suveren olması üçün bir-birmizi bütün vasitələrlə dəstəkləməkdə yekdildir» (17). İki dövlətin istər ikitərəfli münasibətlər, istərsə də beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyəti ilə bağlı mühüm məsələlərdə mövqe və baxışlarının tamamilə uyğun olduğunu Heydər Əliyev də dəfələrlə vurğulamışdır.

2000-ci ilin martında Prezident L.Kuçma Azərbaycanda rəsmi səfərdə olarkən bir sıra sənədlər imzalanmışdır (18). Onlardan ikisi xüsusilə əhəmiyyətlidir: birinci sənəd strateji tərəfdaşlığı müəyyənləşdirir, ikincisi isə 2009-cu ilədək iqtisadi münasibətləri tənzimləyir. Hər iki sənəd 2000-ci il iyulun 18-də Milli Məclisdə ratifikasiya edilmişdir (19).

Öz növbəsində Azərbaycan Respublikasının Prezidenti Heydər

Əliyev 1997-ci və 1999-cu illərdə Ukraynada rəsmi səfərdə olmuşdur. Prezidentimizin 1997-ci ilin martında gerçəkləşdirilmiş səfəri iki dövlət arasında əməkdaşlığın perspektivlərini birdəfəlik müəyyənləşdirən mühüm hadisə kimi yadda qaldı. Səfər zamanı 20-dən çox dövlətlərarası və hökumətlərarası sənəd imzalanmışdır. Sənədlər investisiyaların təşviqinin və qorunmasının əsaslarını, elmi-texniki və hərbi-texniki əməkdaşlığı, gömrük məsələlərini, dəmir yolu nəqliyyatını, standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində əməkdaşlığı, konsulluq münasibətlərini tənzimləyir. İmzalanmış sənədlər arasında Azərbaycan Respublikası ilə Ukrayna arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında memorandum, Azərbaycan Respublikası hökuməti ilə Ukrayna hökuməti arasında elmi-texniki əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Ukrayna Müdafiə Nazirliyi arasında hərbi sahədə əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu ilə Ukrayna Pensiya Fondu arasında pensiyaların qarşılıqlı köçürülməsi və ödənilməsi haqqında saziş, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Ukrayna Ədliyyə Nazirliyi arasında məhkəmə ekspertizası sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə Ukrayna Mədəniyyət və İncəsənət Nazirliyi arasında mədəniyyət və incəsənət sahəsində əməkdaşlıq haqqında saziş, Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Ukrayna Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş vardı. İki sənədin – «Azərbaycanla Ukrayna arasında tərəfdaşlığın dərinləşdirilməsi və genişləndirilməsi haqqında bəyannamə» və «Azərbaycan Respublikası ilə Ukrayna arasında neft-qaz sənayesi sahəsində əməkdaşlıq haqqında memorandum»un qəbulu mühüm əhəmiyyət kəsb edirdi (20). 1997-ci il 25 mart tarixli protokolda 1995-ci il iyulun 28-də Bakıda imzalanmış sənədlərin qüvvəyə minməsinə dair dövlətdaxili prosedurların Azərbaycan və Ukrayna tərəfindən yerinə yetirilməsindən, həmçinin dəniz nəqliyyatı sahəsində əməkdaşlığın vəziyyətindən razılıq ifadə edilmişdir (21).

Prezident Heydər Əliyevin 1999-cu ildə Ukrayna səfəri zamanı imzalanmış dövlətlərarası və hökumətlərarası sənədlər qarşılıqlı münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə qaldırmaq üçün əlavə hüquqi baza yaratdı. Həmin il Kiyevdə imzalanmış sənədlər 2000-ci il martın 16-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir (22).

Beləliklə, prezidentlərin qarşılıqlı səfərlərinin gedişində iki ölkə arasında münasibətlərin inkişafı üçün zəruri müqavilə-hüquqi baza yaradıldı, qarşılıqlı maraq doğuran məsələlərə münasibətdə əsas istiqamətlər müəyyənləşdirildi. Dövlət başçılarının keçirdikləri görüşlər, apardıqları danışıqlar ikitərəfli əməkdaşlığın genişləndirilməsinə və dərinləşdirilməsinə güclü təkan verdi.

İki ölkə arasında əməkdaşlığın möhkəmləndirilməsində parlamentlərarası təmaslar mühüm yer tutur. Milli Məclisin Sədri M.Ələsgərovun başçılığı ilə Azərbaycan parlament nümayəndə hey-

ətinin 2002-ci ilin dekabrında Ukraynaya səfərinin yekunlarına dair qəbul olunmuş bəyannamədə müxtəlif səviyyələrdə ikitərəfli münasibətlərin inkişafı və möhkəmləndirilməsi məsələlərinə dair daimi siyasi dialoqun vacibliyi vurğulanmışdır (23). Ukrayna Ali Radasının Sədri V.Litvin dəfələrlə Bakıda rəsmi səfərdə olmuşdur.

Azərbaycan və Ukrayna hökumət nümayəndə heyətlərinin səfərləri də ənənəvi xarakter almışdır. 2004-cü ilin iyulunda Azərbaycan Respublikası Baş nazirinin birinci müavini A.Abbasov və Ukrayna Baş nazirinin müavini A.Klyuyev neft sahəsində əməkdaşlıq haqqında saziş imzalamışlar (24). Ümumiyyətlə, tədqiq edilən dövr ərzində təxminən 60 hökumətlərarası sənəd imzalanmışdır və onlar həyata keçirilir (25).

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Ukrayna Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında tənzimlənməsinə tərəfdar çıxır. Ukraynanın dövlət başçısı dəfələrlə bildirmişdir ki, «Azərbaycanın ərazi bütövlüyünə ciddi riayət etməyin zəruriliyindən başqa bizim başqa mövqeyimiz yoxdur» (26).

Azərbaycan və Ukrayna MDB çərçivəsində fəal əməkdaşlıq edir, separatizm problemi nəzərdən keçirilərkən eyni mövqedən çıxış edərək bir-birini müdafiə edirlər. Hər iki ölkə dövlətlərin ərazi bütövlüyü prinsipini birmənalı şəkildə dəstəkləyir, sülhsevər xarici siyasət yeridir.

Qara dəniz-Xəzər regionunda sabitliyi bərqərar etmək üçün MDB-nin mexanizmləri açıq-aşkar kifayət deyil. Münaqişələrin sivilizasiyalı şəkildə tənzimlənməsi üçün regional mexanizmlərin yaradılması Qafqazda etnik gərginliyin səviyyəsini müəyyən qədər azalda bilər. Yeni müstəqil dövlətlərin ehtiyacları əməkdaşlıq münasibətləri qurmaq, yeni xarici siyasət istiqamətləri formalaşdırmaq üçün daha real və effektiv, postsovet ölkələrinin milli mənafeyinə daha çox cavab verən vasitələr tələb edir. Odur ki, Azərbaycan və Ukrayna regional əməkdaşlığın yeni modelində - GUAM çərçivəsində sıx əməkdaşlıq edirlər. GUAM-ın yaradılması üçün Azərbaycanın Ukrayna, Gürcüstan və Moldova ilə ikitərəfli sazişləri əsas olmuşdur. 1997-ci il oktyabrın 10-da Avropa Şurasının Strasburqdakı sammiti zamanı bu ölkələrin prezidentləri birgə görüş keçirərək GUAM siyasi məşvərət forumunun yaradılmasını elan etdilər. Qəbul olunmuş birgə bəyannamədə dörd ölkənin ATƏT, eləcə də digər Avropa və Atlantika qurumları, o cümlədən Avroatlantika Tərəfdaşlığı Şurası və NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığının perspektivlərinə toxunulur (27). NATO-nun 1999-cu il aprelin 24-də Vaşinqtonda keçirilmiş sammitində iştirak edən GUAM liderlərinin qəbul etdiyi bəyanatda Şimali Atlantika alyansı ilə maksimum əməkdaşlıq yeni qurumun məqsədlərindən biri kimi göstərilirdi (28).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev GUAM-a böyük ümidlər bəsləyirdi. O, GUAM-ın 2001-ci il iyunun 7-də Yaltada keçirilmiş sammitində bir daha təşkilatın yaradılması-

nın zəruriliyinə toxunmuşdur. Dövlətimizin başçısı dörd ölкənin GUAM çərçivəsində birləşməsini zəruri edən amillər кimi regional prinsipləri, milli maraqların oxşarlığını, xüsusilə dövlət müstəqilliyini möhкəmlətməyin və onu daha da inкişaf etdirməyin zəruriliyini, iqtisadi əməкdaşlıq üçün geniş imкanların mövcudluğunu və nəhayət, çətin кeçid dövründə gənc dövlətlərin bir-birini dəstəкləməsinin vacibliyini göstərirdi. Heydər Əliyev əmin idi кi, «yeni təşкilat özünü nüfuzlu siyasi qüvvə кimi göstərməyə qadirdir» (29).

GUAM çərçivəsində Azərbaycanla Uкrayna arasında əməкdaşlığın əsas istiqamətləri aşağıdaкılardır: ümumi təhlüкəsizliк məsələlərinin həllində siyasi məsləhətləşmələr sisteminin yaradılması və səylərin əlaqələndirilməsi, Avrasiya nəqliyyat dəhlizinin inкişaf etdirilməsi, кarbohidrogen ehtiyatlarının istismarı və Avropa ölкələrinə nəqli sahəsində əməкdaşlıq, təhlüкəsizliк, münaqişələrin tənzimlənməsi və separatizmlə mübarizə sahəsində çoxtərəfli əməкdaşlığın inкişaf etdirilməsi, hərbi və hərbi-texniкi əməкdaşlıq, o cümlədən çoxtərəfli sülhməramlı taborun yaradılması, Azərbaycan və Uкraynanın sülhməramlı fəaliyyətinin gücləndirilməsi və etniк münaqişələrin tənzimlənməsinə кöməк.

Uкrayna neft və qaz yataqlarının ümumi istismarında, həmçinin neftin Uкrayna ərazisi ilə Avropaya nəqli üçün müvafiq imкanların yaradılmasında maraqlıdır. Azərbaycan, Uкraynanın Odessa-Brodı neft кəmərini Xəzərdəкi enerji ehtiyatlarının Avropaya ixracı üçün perspeкtivli marşrut кimi nəzərdən кeçirir. Azərbaycanla Uкrayna arasında yeni sazişə uyğun olaraq, Baкı-Poti-Supsa neft кəməri Odessadan кeçərəк Qərbi Avropaya istiqamət götürəcəк. Кəmərin ümumi uzunluğu 830 кilometr, buraxıcılıq qabiliyyəti ildə 5,8 milyon ton neftdir. Bu isə təxminən Baкı-Novorossiysк neft кəmərinin buraxıcılıq qabiliyyətinə bərabərdir. Sözügedən neft кəməri Azərbaycan neftini Avropa bazarına çatdırmaq üçün ən qısa yoldur.

Qeyd etməк lazımdır кi, Azərbaycanla Uкrayna arasında nəqliyyat sahəsində əməкdaşlığın başqa bir mühüm istiqaməti də var. 1993-cü ilin mayında Brüsseldə Avropa Birliyinin TASİS Proqramına uyğun olaraq qəbul edilmiş TRASEKA layihəsi tarixi İpəк yolunun bərpasını nəzərdə tutur. Bu layihənin reallaşdırılması Mərкəzi Asiya, Qafqaz və Avropa arasında tarixən mövcud olmuş nəqliyyat əlaqələrinin dirçəldilməsinə təкan verməlidir. Azərbaycan isə bu layihədə aparıcı yer tutur. TRASEKA layihəsinin məqsədi hazırda mövcud olan yollarla yanaşı, Qara dəniz və Qafqazdan кeçərəк Avropadan Mərкəzi Asiyaya ən sürətli və ucuz iкitərfli yolun yaradılmasından ibarətdir. Bu, perspeкtivdə qlobal Avrasiya bazarının yaradılmasına xidmət edəcəк. Avrasiya bazarında həm Azərbaycan, həm də Uкrayna üçün кifayət qədər ciddi imкanlar açılır.

Bir mühüm cəhəti də vurğulamaq lazımdır кi, Azərbaycan-Uкrayna münasibətlərində mübahisə doğuran məqamlar müşahidə olunmur. Bu isə ondan irəli gəlir кi, hər iкi dövləti ümumi mənafe

birləşdirir. İki tərəf bütün başlıca sahələrdə dövlətlərarası münasibətlərin inkişafında eyni dərəcədə maraqlıdır. Həm Bakı, həm də Kiyev bu prosesin fəallaşdırılmasının zəruriliyini yetərincə dərk edir. İkitərəfli əməkdaşlığın əsaslandığı dövlətlərarası, hökumətlərarası və idarələrarası müqavilələrin sayı 100-ə çatmışdır (30).

Azərbaycan-Ukrayna əməkdaşlığını hər şeydən əvvəl coğrafi-siyasi amillər şərtləndirir. Dövlətin müttəfiq və tərəfdaş seçməsi təsadüfi hal deyil. Müttəfiq və tərəfdaş, bir qayda olaraq, dövlətin coğrafi-siyasi mövqeyi və tarixi inkişafı ilə müəyyənləşir.

Azərbaycan-Ukrayna münasibətləri iki iri makroregional zona – Avropa və Avrasiya arasında coğrafi-strateji əməkdaşlıq sisteminin bir hissəsidir. İki dövlətin potensialı onların regional münasibətlər səviyyəsində yaxınlaşmasına imkan yaradır. Azərbaycanla Ukrayna arasında qarşılıqlı əlaqələrin inkişafını ölkələrimizin siyasi və iqtisadi maraqları şərtləndirir. Hər iki tərəf səylərini birləşdirərək qarşıda duran ümumi vəzifələrin, müştərək maraqların reallaşdırılması istiqamətində aktiv fəaliyyət göstərir.

## ƏDƏBİYYAT


1. Страны и регионы мира. Экономико-политический справочник. М.,2003,с.40.
2. «Бакински рабочи» qəzeti, 26 avqust 1991-ci il.
3. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 15 dekabr 1991-ci il, №23, maddə 423.
4. Azərbaycan Respublikası Milli Məclisinin arxivi, f. 2941, s. 1, iş. 2, v.29-30.
5. «Həyat» qəzeti, 21 dekabr 1991-ci il.
6. Azərbaycan Respublikası Milli Məclisinin arxivi, f. 2941, s. 1, iş 244, v.182.
7. «Azərbaycan» qəzeti, 28 sentyabr, 1994-cü il.
8. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 30 oktyabr 1992-ci il, № 19, maddə 886.
9. «Azərbaycan» qəzeti, 22 fevral 1996-cı il.
10. Azərbaycan Respublikası Milli Məclisinin arxivi, f. 2941, s. 1, iş 581, v. 11-12.
11. Yenə orada, iş 829, v.107.
12. «Бакински рабочи» qəzeti, 31 yanvar 2000-ci il.
13. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 1996, maddə 109, v. 39.
14. Вестник межпарламентской ассамблеи №2(16). Санкт-Петербург, 1997, с. 178; Конституция Украины, Киев, 1996, с.31.
15. «Günay» qəzeti, 29 iyul 1995-ci il.
16. Azərbaycan Respublikası Qanunu, 6 iyun 1997–ci il, 302-İQ nömrəli.
17. Э.Ахундова. Мгновения истины. Б – 2003, с.177.
18. «Azərbaycan» qəzeti, 19 mart 2000-ci il.
19. Azərbaycan Respublikası Milli Məclisinin arxivi, f.2941, s.1,iş 822, v. 152.
20. Журнал Contact (1-4 июня 1999), с. 25.
21. Ədliyyə Nazirliyinin cari arxivi, s.2.
22. «Azərbaycan» qəzeti, 15 may 2000-ci il.
23. «525-ci qəzet», 2 oktyabr 2004-cü il.
24. «Зеркало» qəzeti, 5 iyul 2004-cü il.
25. «Xalq qəzeti», 1 may 2003-cü il.
26. «Ведомости Верховной Рады Украины», 25 июля 2003 г., №30, с.41-42.
27. Официальные документы ГУУАМ. Совместное коммюнике встречи президентов Азербайджана, Грузии, Молдовы и Украины, 1997г., с.5.

28. Azərbaycan Respublikasının qanunvericilik aktları məcmuəsi, 31 dekabr 1999-cu il, № 12, maddə 665.
29. Официальные документы ГУУАМ. Речь президента Г. Алиева на саммите глав государств-членов ГУУАМ 7 июля 2001 г. в Ялте, 2001г., с.18.
30. S.A.Qurbanova. Müəllif tərəfindən Azərbaycan Respublikası arxivlərindən, dövri mətbuatdan toplanmış materiallar əsasında hesablanmışdır.

## ПОЛИТИЧЕСКИЕ ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С УКРАИНОЙ (1991-2003 гг.)

**С.ГУРБАНОВА**

### РЕЗЮМЕ

Развитие азербайджано-украинских взаимоотношений обусловлено политическими и экономическими интересами стран. В данной статье на основе большого материала исследован характер, основные этапы и формы политических отношений Азербайджанской Республики и Украины в годы независимости.